Proceedings of the 2nd International Scientific and Practical Conference «Diversity and Inclusion in Scientific Area»
(January 26-28, 2023).
Warsaw, Poland

No 140

INTERCONF Scientific Publishing Center

PHILOLOGY AND LINGUISTICS

# Şahbuz rayonu etnotoponimlərinin linqvistik xüsusiyyətləri və təhlili

**Eminova Aysel[1], Cəfərova Nərmin[2]**

[1] *AMEA Naxçıvan Bölməsi;* Azərbaycan Respublikası

[2] *NAXÇIVAN MR Əkbər Ağayev adına 8 № li məktəb;* Azərbaycan Respublikası

## Giriş

Azərbaycan xalqının qədim tarixini və mənəvi mədəniyyətini öyrənmək üçün toponimlər çox vacib sahədir. Çünki yaşadığımız ərazinin relyefini, məşğuliyyətini, peşəsini və dil tarixini bu adlarda tapmaq mümkündür. Toponimlərin dərindən öyrənilməsi sərhədlərimizi, milli adlarımızı daha da dərindən bilmək üçün olduqca vacibdir. Toponimlərin öyrənilməsi tarixi yer adlarına qayğı göstərməyi, onları qoruyub saxlamağı tələb edir. Naxçıvan ərazisində də tədqiqatlara cəlb olunan toponimlər var və bu toponimlər çox maraqlı və qədim tarixə malikdir. Ərazimizdəki toponimlərin bir çoxu Azərbaycan-türk mənşəlidir. Bununla yanaşı ərazidə ərəb, fars və az sayda monqol mənşəli adlara da rast gəlinir. Bunun səbəbi isə ərazidə baş verən ictimai-siyasi, iqtisadi hadisələrlə bağlıdır. Naxçıvan toponimlərinin əsasını və bütün çoxluğunu dilimizin, mədəniyyətimizin daş yaddaşını yaşadan Azərbaycan ulutürk toponimləri təşkil edir. Biz də bu səbəbdən Şahbuz rayonunu tədqiqata cəlb etmişik. Buna görə də ilk öncə elə Şahbuz sözünün etimologiyasını təhlil etməyi məqbul hesab edirik.

**I. Şahbuz sözünün etimologiyası.**

Şahbuz Naxçıvan Muxtar Respublikasında yerləşən rayon adıdır. Şahbuz adına tarixi mənbələrdə ilk dəfə Teymurun tarixçisi Şərafəddin Əli Yəzdinin Zəfərnamə adlı əsərində rast gəlinir. [2, s. 188]. Lakin elmi əsərlərdə Şahbuz sözünün etimologiyasına fərqli baxışlar var. Q.Qeybullayev yazır ki, Şahbuz əvvəlcə qala adı olub. Şahbuz ərazisi arxeoloji, linqvistik, etnoqrafik baxımdan tədqiqata cəlb edilmədiyinə görə bu adın mənşəyi açıqlanmamışdır. Ancaq müəllif düşünür ki, Şahbuz sözünün mənşəyi oronimlə bağlıdır. Bu oronim *şah* və *puz* sözlərinin birləşməsindən yaranıb, "dağ silsiləsindən



*This work is distributed under the terms of the Creative Commons Attribution-ShareAlike 4.0 International License (https://creativecommons.org/licenses/by-sa/4.0/).*

ayrılan dimdiyə bənzər sıxıntı" mənasında işlənir [7, s. 109]. Bəzi müəlliflər isə düşünür ki, Şahbuz sözü iki türkmənşəli tayfa adının birləşməsi nəticəsində Saqbus-Şaqbus-Şahbus və sonda Şahbuz adı yaranmışdır. Biz də bütün ehtimalları nəzərdən keçirib, belə qənaətə gəlirik ki, Şahbuz adının ikinci hecasındakı *buz* qədim Midiyada mövcud olan *bus* tayfa adından əmələ gəlib. Bildiyimiz kimi də buslar qədim türk mənşəli tayfalardır. Sözün ilk hecasındakı *şah* hissəciyi isə "hündür, uca, yüksək", " ən yaxşı, ən b irinci, ən nümunəvi " [2, s. 189] mənalarında işlənir və bus tayfa adı ilə birləşərək Şah+bus, Şah+buz sözünü əmələ gətirir. Nəticə olaraq bu qənaətə gəlirik ki, sözün açılımı "Buslara məxsus ən yaxşı, ən nümunəvi yer" və ya "busların hündürlükdə, yüksəklikdə, dağlar qoynunda yerləçən ən yaxşı yeri" mənasını özündə ehtiva edir.

**II. Şahbuz rayonunun etnooykonimləri.**

Toponimlərin geniş yayılmış növlərindən biri də oykonimlərdir. Oykonim şəhər, kənd, qəsəbə kimi yaşayış məntəqə adlarını bildirir. Oykonimlər iki yerə ayrılırlar: Komonimlər və astionimlər. Astionimlər şəhər, komonimlər isə kənd, qəsəbə tipli yaşayış məntəqələrini bildirir.

Naxçıvan ərazisinin oykonimləri öz zənginliyinə və gözəlliyinə görə insanın diqqətini cəlb edir. Bu oykonim adlarının nə zaman yarandığı bizə naməlumdur. Naxçıvanın və buradakı oykonimlərin qədim tarixi vardır. Tarixi faktlar sübut edir ki, 1590-cı ildə Naxçıvan 1 qəza və 16 nahiyəyə, nahiyələr isə kəndlərə bölünmüşdür [ 4, s. 9]. Naxçıvan ərazisindəki oykonimlərin tərkib hissəsini də türk mənşəli adlar təşkil edir. Burada müxtəlif çağlarda bu ərazilərdə məskunlaşan ayrı-ayrı tayfa və tayfa birlikləri ilə bağlı adlar təşkil edir. Naxçıvanın da əsas bölgələrindən sayılan Şahbuz rayonundakı etnooykonimlərin də linqvistik təhlilinə yer ayırmışıq.

**Keçili:** Şahbuz rayonunda yerləşən kəndin adıdır. Bu ada əsasən XVII əsrdən sonrakı mənbələrdə rast gəlinir [6, s. 98]. Bəzi müəlliflər bu sözün anlamını qədimdə olan tayfa adı ilə əlaqəli olduğunu düşünürlər. Naxçıvana aid olan sənədlərdən də görürük ki, "tayifeyi-keçili" Səfəvilər dövründə Arazın sağ sahilindən, şimalına köçmüşlər. Həmin sənəddə göstərilir ki, "Kəngərlilərə görə, keçililəri ayrıca tayfa saymaq lazımdır. Nadir şah Kabula hücum edəndə onun qoşununun tərkibində kəngərlilər və keçililər də olmuşdur. Nadir şahın ölümündən sonra Azad xan keçililərdən ibarət bir dəstəni 18 nəfəri qoşununa qəbul etmişdir". Keçililər Arazın cənubunda

*This work is distributed under the terms of the Creative Commons Attribution-ShareAlike 4.0 International License (https://creativecommons.org/licenses/by-sa/4.0/).*

yaşayırdılar və Keç tayfası kimi tanınırdılar. Bu tayfaya Kərim-Sultan başçılıq etmişdir. Bəzi məlumatlara görə, Kərim-Sultan vəzifədən azad edilmişdir.Kərim-Sultan İran şahı olan Kərim xan Zəndə həmin vəzifəyə qayıtmasını xahiş edir və Kərim xan Zənddə bunu qəbul edir [2, s. 70].

Bir müddət bu kənd Plankənd adlandırılmışdır. Q.Qeybullayev kəngərlilərin bir qolunun keçililər olduğunu yazır.Q.Məşədiyevin yazdığına görə "Keçili türkmənlərin tərkibində də ayrıca tayfa olmuşdur.Çox güman ki,oğuz-türkmən tayfası olan yürüklərin sarıkeçili qolu da bu tayfanın adı ilə bağlıdır" [5, s. 140].

Bu faktlar bizə əsas verir ki, Keçili adını etnonim səciyyəli oykonim hesab edək.

**Sələsüz:** Şahbuz rayonundakı kəndin adıdır. Bu ad 1590-cı ilə aid mənbələrdə Sələsus kimi qeyd olunur [4, s. 166]. Sələsuz adı əvvəlcə oronim, sonra isə oykonim olmuşdur. Yəni Sələsuzun oronim kimi yaranma tarixi oykonim kimi yaranma tarixindən qədim olmuşdur [3, s. 258].

V.V.Radlova əsaslanaraq Sələsus sözünün qədim türk dillərindəki sala "yarı-yarımçıq; bir az; bir qədər sulu" sözləri əsasında yarandığını qeyd edirik. Qeyd edək ki, Badamlı mineral bulaqları da həmin ərazidə yerləşir. Bu ərazi qayalıq, dağlıq hissədə yerləşir. Sələsüz kəndinin yaranma tarixi məlum deyil. 1727-ci ildə bu kənddə müsəlmanlar yaşayıb. Kəndin digər adı isə Gülyazı olub. [6, s. 112].

Düşünürük ki, qədimdəki adı Gülyazı olan bu kəndin, həm də Sələsüz adlandırılması, kəngərlilərin kəlfirli tirəsinin bir qolu ilə bağlıdır. Çünki Sələsüz bu tayfanın qədim yaşayış yeri olub, XIX əsr və ondan əvvəlki romanlarda Kəlfirli tayfaları bu kənddə məskunlaşıb [9, s. 132]. Sələsus qədim etnotoponimdir, qədim mənbələrdəki faktlar da buna əsaslanmağa imkan yaradır.

**Əyrək:** Şahbuz rayonunun bir kəndidir. Biz 1727-ci ilə aid məlumatlardan görürük ki, bu kənddə yaşayış yox imiş. Bu məlumatda həmdə Külüs kəndinin əhalisinin bu torpaqlardan yararlanması haqqında məlumatda verilir [6, s. 107].

Güman edirik ki, bu ad "Kitabi Dədə Qorqud" dastanının "Uşun qoca oğlu Səkrəyin boyunu bəyan edər" boyundakı Əyrək antrononimi əsasında yaranıb. Dastanın 1939 və 1988-ci il nəşrlərində Əyrək, 1962-ci il nəşrində isə Əkrək şəklində yazılmış [2, s.79] bu ad həmin kənd adında öz ifadəsini tapır.

**Taqtaq:** Şahbuz rayonunda kənd adıdır. Dərəşah burda qeydə alınmışdır. Bu ad bir çox mənbələrdə Taxtaq, Taqtaq, Saktak şəkillərində yarılmışdır [4, s.167]. Hal-hazırdakı Yuxarı


This work is distributed under the terms of the Creative Commons Attribution-ShareAlike 4.0 International License (https://creativecommons.org/licenses/by-sa/4.0/).

Qışlaq kəndinin keçmiş adı elə Taqtaq olmuşdur. Biz düşünürük ki, bu ad Sak//Saq tayfa adı və taq sözünün (dağ anlamı verir) birləşməsindən yaranıb,<<Sak dağı>>mənasını verir.

**Biçənək:** Şahbuz rayonunda yerləşən kəndlərdən biridir.Bu ad 1590-cı ildə qeydə alınmışdır.xvııı əsrə aid mənbələrdə Biçənək adına rast gəlinmir [6, s. 166]. Bu kəndin adı xx əsrin əvvəllərində Karmalinovka kimi qeydə alınmışdır.Bəzi söyləmələrə əsasən bu kəndə "Ağqoşa" deyilirmiş.

V.Qriqoryevin əsərində Biçənək adına rast gəlinmir [8, s. 124].

Kənddə yaşayışın olmaması haqqında məlumatı İ.Şopen vermişdir. [10, s.512].

Bəzi yerli əhalinin dediyinə görə Biçənək "ot biçilən yer"mənasını verir.Ancaq tədqiqatçıların hamısı bu adın mənşəyini qədim türk Peçenek tayfasının adı ilə bağlı olduğunu deyirlər. Oğuz tayfalarından biridə Peçenek tayfasıdır [2, s.112].

İlk dəfə olaraq akademik Z.Bünyadov "Biçənək" toponimində qədim türk "Peçenek" tayfa adının əks olunduğunu yazmışdır. Biz də məhz bu faktı əsas götürürük.

**Türkeş:** Şahbuz rayonunun kəndidir. Mənbələrdə Tirkeş və Tirkəş şəklində göstərilir [4, s.166; 6, s. 28].

R.Kərimli Tirkeş sözünü "çay qollarının qovuşduğu yer" mənasında açıqlayır [2, s. 75]. Bu söz farsca "oxqabı", "oxdan" mənasını verir. Türkeş tayfalarının Naxçıvana gəlişi haqda heç nə demir və ərazidə bu tayfa adı ilə bağlı bir iz görünmür. Bizim fikrimizcə, Türkeş kəngərlilərə məxsus tayfanın adıdır, çünki kəngərlilərin kəlfirli tirəsi bu kənddə yaşayıb.

Güman edirik ki, türkeşlər tarixən kəngərli tayfaları ilə qaynayıb-qarışmış və nəticədə kəlfirli tayfası ilə qarışıq bir tirə yaranıb. Tarixən Tirkeş kimi tanınan bu kəndin adı 2003-cü ildə Türkeş adı ilə adlandırılmışdır.

**III. Şahbuz rayonunun etnooronimləri.**

Oronimlər toponimlərin zəngin və maraqlı növlərindən biridir. Oronim yunanca oros –"dağ" , onum- "ad" sözlərinin birləşməsindən yaranmışdır. Oronimlər adət-ənənələrimizi, milli mədəniyyətimizi qoruyub saxlayan, bizim üçün qiymətli olan abidələrdir. Naxçıvan oronimlərinin araşdırılması ictimai-siyasi və mənəvi əhəmiyyətinə görə vacib əhəmiyyət kəsb edir. Naxçıvanda yerləşən oronimləri araşdırıb öyrənmək üçün uzun illər ərazidə çöl tədqiqatları aparılmışdır. Bizim də Şahbuz rayonunda araşdırdğımız etnooronimlər aşağıdakılardır.

*This work is distributed under the terms of the Creative Commons Attribution-ShareAlike 4.0 International License (https://creativecommons.org/licenses/by-sa/4.0/).*

# PHILOLOGY AND LINGUISTICS

**Ərikli dağı**. Şahbuz rayonu ilə Zəngəzur mahalının sərhəddində yerləşir. Bu dağ adını Ərikli tayfa adından almışdır. Ərikli kəndi XVII-XVIII əsrlərdə Naxçıvanın Sisyan qəsəbəsində qeydə alınmış [6, s. 33] və eyniadlı tayfa da bu kənddə yaşamışdır. 1918-ci ildə erməni daşnaqları tərəfindən bu kənd dağılmış, sağ qalan insanlar isə Azərbaycanın müxtəlif bölgələrinə səpələnmişdir. Bu bölgələrin içində Naxçıvanda vardı. Hal-hazırda Şahbuz rayonunun Nursu kəndində Ərikli kəndini məcburi tərk etmiş ailələrin nəsilləri yaşayır.

**Külüs düzü**. Şahbuz rayonunun Külüs kəndi ərazisində yerləşir. Bu düz öz adını eyniadlı oykonimdən almışdır. Külüs qədim toponimdir [4, s. 166]. Tədqiqatçılar fikirləşirlər ki, bu ad kühül (mağara) sözü əsasında yaranmışdır [1, s. 306]. Amma tarixi faktlar bunu göstərir ki, Külüs kəngərlilərin salayçı qoluna aid tirə adıdır. Salayçı tayfası bu kənddə XIX əsrdən xeyli əvvəl yaşamışdır.

**Qanlıgöl dağı**. Şahbuz rayonunun Kükü kəndi ərazisində Qanlıgöl, Qanlıgöl dağ, Qanlıgöl sahəsi adlı oronim və hidronim mövcuddur. Naxçıvanda ən böyük göllərdən biri Qanlıgöldür.

İ.Şopen yazır ki, "Qanlıgöl Kükü kəndindən yuxarıda Naxçıvan əyalətinin ən yüksək hissəsində yerləşir və mühüm təsərrüfat həyatı daşıyır.Burada tez-tez ölüm hadisələri olur" [10, s. 398]. Göl qar və yağış suları ilə qidalanır. Qanlıgöl XVI əsrin sonlarında Heydər xan tərəfindən suni gölə çevrilmişdir. Bizim fikrimizcə, Naxçıvan ərazisindəki qanlı komponentli oronimlərin mənşəyi ərazidə nə zamansa baş vermiş bədbəxt hadisə ilə bağlı yaranmışdır. Ərazidəki Qanlı yamac (Culfa rayonu), Qanlıquzey dağı (Sirab kəndi,Babək rayonu), eləcə də Zəngəzurun I Şıxlar kəndi ərazisindəki Qanlı göl adlarının mənşəyidə bu qəbilədəndir.

**Təkəlik dağı**. Şahbuz rayonu ərazisindəki Təkəlik dağ adı qızılbaşlara aid tayfa adı əsasında yaranmışdır. Geniş areala malik olan Təkəli tayfası Azərbaycanın bütün bölgələrinə səpələnmiş və adını Təklə kəndi (Kürdəmir, Masallı, Cəlilabad) kimi adlarda yaşatmışdır.

Şahbuz rayonundakı Təkəli dağı bu tayfanın əsas yaşayış yeri olmuş və tayfa adını bu günə qədər qoruyub saxlamışdır. Təkəli komponentli toponimlərə İrəvan quberniyası, Qazaxıstan, Gürcüstan, Türkmənistan, Başqırdstan və Türkiyə ərazilərində də rast gəlinir.

**Şamlar massivi**. Bu sahə Şahbuz rayonunun Mahmudoba və Qarababa kəndləri ərazisində yerləşir. Dilimizdə şam komponentli adların mənası müxtəlif istiqamətlərdən təhlil


This work is distributed under the terms of the Creative Commons Attribution-ShareAlike 4.0 International License (https://creativecommons.org/licenses/by-sa/4.0/).

olunur. Belə adlar tayfa adı, şam ağacı və bitkisinin adı, qamışlıq, cəyənlik kimi adlarla əlaqələndirilir. Bu sahə eradan əvvələ aiddir.

Şam sözü relyef quruluşu ilə bağlıdır və "yer, məskən, yurd, torpaq" mənalarında da işlənə bilər. Şamlar massivinə yerli əhali arasında "Mehrablı yer" də deyilirdi. Mehrab sözünün mənası dilimizdə "namaz qılarkən pişnamazların üzlərini çevirdikləri yer" deməkdir. Bəzi yerli əhali Şamlar massivinə "Dölçək" deyirdi.

**IV. Şahbuz rayonunun etnohidronimləri.**

Naxçıvan hidronimləri xalqımızın tarixi keçmişi, dili, yaşayış tərzi, etnogenezi, etnoqrafiyasının öyrənilməsi üçün mühüm mənbədir. Bu hidronimlər dilimizin leksikologiya, semasiologiya, onomalogiya və digər sahələrinin zənginləşdirilməsi, izahlı hidronimik lüğətlərin hazırlanması, bir çox tarixi gerçəklərin dəqiqləşdirilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Şahbuz rayonunu tədqiqata cəlb etdiyimiz üçün çaylardan Şahbuzçay adını çəkə bilərik. Lakin Şahbuz sözünün etimologiyasına toxunduğumuz üçün təkrarən yazmağa ehtiyac duymuruq. Göl adları da hidronimlərə daxil olduğundan bir neçə etnohidronimin etimologiyasina toxunuruq. Qeyd edək ki, ərazidəki göllərin su ehtiyyatı və təsərrüfat əhəmiyyəti böyükdür. Əhali həmin göllərin su tutumunu daha da artırmaq üçün onların bəndləri üzər

**Batabat gölü.** Respublikamızın ən dilbər guşələrindən olan Şahbuz rayonunun Batabat yaylağında yerləşir. Göl təbii şəkildə yaranıb, lakin 1951-1955-ci illərdə Böyük gölün bəndi üzərində tikinti quraşdırma işləri aparılmış və gölün su tutumu artırılmışdır.

Batabat gölü əsas qidasını Zorbulaq, yağış və qar sularında alır. Bu göl Naxçıvançayın əsas qida mənbəyidir. Göl Şahbuz və Babək rayonlarının əkin sahələrinin suvarılması və heyvandarlığın inkişafında mühüm rol oynayır.

**Böyük göl.** Şahbuz rayonunun Nurs kəndi ərazisindədir. Göl tutduğu ərazinin genişliyində və yaxınlığında mövcud olan Çimli və Taclı göllərdən böyük olduğuna görə belə adlanır.

Böyük göl Şahbulaq, yağış və qar suları ilə qidalanır. 1960-cı illərin sonlarında gölün bəndi üzərində tikinti işləri aparılıb və onun həcmi genişləndirilib. Gölün ətrafı müxtəlifdərman bitkiləri və təbii otlarla zəngindir.

**Nəticə**

Nəticə olaraq onu qeyd edək ki, Naxçıvanın, həmçinin Şahbuz rayonunun etnotoponimlərinin hər birinin nüvəsi Azərbaycan mənşəlidir. Bu adlar ana torpağın adından, qədim

This work is distributed under the terms of the Creative Commons Attribution-ShareAlike 4.0 International License (https://creativecommons.org/licenses/by-sa/4.0/).

türk tayfalarından doğulub, milli adımızı, varlığımızı, kimliyimizi təsdiqləyir. Ona görə də bölgədə hibrid və digər dillərə məxsus toponimlərə təsadüf olunmur.

**References:**

[1] Azərbaycan toponimləri, Ensiklopedik lüğət, Bakı: Azərbaycan Sovet Ensiklopediyası, NRB, 1999, 588 s
[2] Bağırov A. Naxçıvan oykonimləri. Bakı: Nurlan, 2008, 333 sx,s.188
[3] Əhmədov T.M. Azərbaycan toponimikasının əsasları, Bakı: BDU-nun nəşri, 1991
[4] İrəvan əyalətinin icmal dəftəri. Bakı: Elm, 1996, 184 s.s.
[5] Məşədiyev Q.İ. Zaqafqaziyanın Azərbaycan toponimləri, Bakı: Elm, 1990.
[6] Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı: Sabah, 1997, 336 s.,s.98
[7] Гейбуллаев Г.А., Топонимия Азербайджана, Баку: Элм, 1986. s,109
[8] Григорев В.В. Статистическое описание Нахичеванской провинций, Санкт- Петербург: 1833
[9] Смирнов Н.К. Материалы по истории и этнографии Нахичеванского края (Тифлис, 1934 г). Баку: Озан, 1999
[10] Шопен И.Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. Санкт-Петербург, 1852, 644 с



*This work is distributed under the terms of the Creative Commons Attribution-ShareAlike 4.0 International License (https://creativecommons.org/licenses/by-sa/4.0/).*